10.61764/lasr.1.2023.198-207

**UOT 33.338**

**Aysun Bünyətova**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*
*aysun.bunyatova@mail.ru*
***Elmi rəhbər:*** **Təranə Əliyeva, dos.**

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ƏHALİNİN MƏSKUNLAŞMASI VƏ SOSİAL İNKİŞAF LAYİHƏSİ İSTİQAMƏTİNDƏ STRATEJİ YANAŞMA

*Azərbaycanın inkişafı istiqamətində aparılan məqsədyönlü siyasi və iqtisadi fəaliyyətin, ordu quruculuğunun nəticəsi olaraq 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan ərazilərimiz işğaldan azad olundu. Şanlı ordumuz 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zamanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Bu iqtisadi hadisələr fonunda Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdə əhalinin məskunlaşdırılması məsələsinə də yüksək həssaslıqla yanaşır.*

***Məqsəd*** – İşğaldan azad olmuş ərazilərə əhalinin məskunlaşmasının nəzəri-metodoloji əsaslarının tədqiq edilməsi və bu istiqamətdə strateji yanaşmanın öyrənilməsidir.

***Metodologiya*** – məqalədə iqtisadi təhlil metodlarından, analiz, sintez, iqtisadi-statistik, sosioloji və müqayisəli təhlildən istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – Qarabağ zonasına əhalinin qayıdışının iqtisadi təhlilinin nəticəsi olaraq qeyd etmək olar ki, bu prosesin 2 ildən bir qədər artıq müddətdə başlamasına baxmayaraq kifayət qədər böyük işlər ortaya qoyulmuşdur. Regionda sosial inkişaf məqsədləri üçün isə özünüməşğulluğun daha geniş şaxələndirilməsi məqsədəuyğundur.

***Açar sözlər:*** *vətən müharibəsi; sosial yönümlü bazar iqtisadiyyatı, multikultural, "Ağıllı kənd", repatriasiya*

## Giriş

Bildiyimiz kimi, son zamanların ən aktual mövzularından biri, demək olar ki elə birincisi Qarabağın yenidən qurulmasıdır. Bu zəmində ilk öncə infrastrukturun formalaşması, daha sonra isə sosial islahatların həyata keçirilməsi zəruridir. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmışdır və bu məsələnin növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri olaraq müəyyən edilməsi Azərbaycan dövlətinin bu işə nə dərəcədə böyük önəm verdiyinin bariz nümunəsidir. Bu fonda aztəminatlı əhali qrupundan olan sakinlər üçün Qarabğda yaradılan mövcud sosial imkanlar və eyni

zamanda yeni sosial müdafiə mexanizmlərinin bazasının işlənib hazırlanması qarşıda duran başlıca vəzifələrdən biridir [5]. Məqalədə də əsas vurğulanan məsələ bu sahədə görülən konkret işlərdir.

**Əsas hissə**

Günümüzdə vacib məsələlərdən biri olan əhalinin sosial müdafiəsi məsələləri öz aktuallığını qoruyub saxlayır. Dünya ölkələri bu məsələ üzrə bir sıra müdafiə mexanizmləri qurur, bir sıra qanunlar hazırlayırlar. Ölkəmizdə də bu məsələyə xüsusi diqqət yetirilir. Ölkə başçısı, cənab İlham Əliyev başda olmaqla bir sıra qurumlar, xüsusilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu məsələ üzərində daima çalışır. Ölkə əhalisinin bir qrupu - əlilliyi olan, pensiya yaşına çatmış şəxslər, işsizlər və.s dövlətdən hər ay müəyyən məbləğdə müavinət alır. Bir sözlə deyə bilərik ki, sosial müdafiə ölkə əhalisinin hər bir sosial təbəqəsinin gələcəyini öz təminatı altına almaqla əhaliyə gələcəyin problemlərindən qurtulmaq və sosial hüquqlarının müdafiəsinin dayanıqlılığına əminlik yaratmaq duyğusunun yaşadılmasıdır.

Sosial müdafiə sistemləri fərdlərə və ailələrə, xüsusən də yoxsullara və həssas təbəqələrə böhran və sarsıntıların öhdəsindən gəlməyə, iş tapmağa, məhsuldarlığı yaxşılaşdırmağa, uşaqlarının sağlamlığına və təhsilinə sərmayə qoymağa və qocalmış əhalinin qorunmasına kömək edir. Sosial müdafiə proqramları insan kapitalının artırılmasının və insanların sağlam olmaları, təhsillərini davam etdirmələri, ailələrini və özlərini yoxsulluqdan xilas etmək üçün imkanlar axtarmağın əsasını təşkil edir.

Düzgün işlənmiş sosial müdafiə sistemləri güclüdür, çünki onlar insan kapitalını və məhsuldarlığı artırır, bərabərsizlikləri azaldır, dayanıqlılığı artırır və nəsillərarası yoxsulluq dövrünə son qoyur. Bu cür sistemlər və alətlər transformativdir, çünki onlar iqtisadi və fiskal şokları yumşaltmağa kömək edir və insanlara yoxsulluqdan qurtulmaq və cəmiyyətin məhsuldar üzvləri olmaq şansı verməklə imkan yaradır.

Sosial müdafiə ilə bağlı bir çox kitablar, nəzəriyyələr, müxtəlif təşkilatların, dövlət qurumlarının hesabatları, qanunları mövcuddur. BMT-nin sosial inkişaf üzrə tədqiqat insitutu belə hesab edir ki, sosial müdafiə insan rifahını yaxşılaşdıran, rifahı təhlükə altına salan və yaxud ona təsir edən hadisələrin qarşısını alan və riskləri idarə edən bir mexanizmdir, qanunların və xidmətlərin bir toplusudur. Ümumiyyətlə, hər bir dövlətin əsas vəzifələrindən biri vətəndaşlarının sosial müdafiəsinin təmin edilməsidir. Eyni zamanda insanların sosial müdafiə alması ən təməl hüquqlarından biridir. Sosial müdafiə hüquq olmasından əlavə, dövlət və vətəndaş arasında münasibətlərin və inamın formalaşdırılmasında olduqca mühüm rol oynayır.

Hal-hazırda ölkəmizin gündımində olan işğaldan azad edilmiş ərazilərə köç prosesində Prezident İlham Əliyevin Sərəncamı ilə həyata keçirilməyə başlamış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" böyük önəm kəsb edir. Əsas prioritetlərdən biri isə köç edəcək əhalinin təhlükəsizliyini təmin etməkdir. Bunun üçün də bu ərazilərdə minalardan təmizlənmə, yüksək həyat səviyyəsinin qurulması üçün xüsusi infrastruktur, möhkəm, dayanıqlı binalar, müxtəlif növ tikililərin qurulması nəzərdə tutulur. Həmçinin ekoloji mühitin yaxşılaşdırılması, yaşıllıqların artırılması tədbirləri də həyata keçirilir.

Öz maddi ehtiyaclarını qarşılaya bilməyən əhali qrupuna aztəminatlı əhali deyilir. Təəssüf ki, illərlə dünya təcrübəsində də, ölkəmizdə də bununla mübarizə aparılsa da bu əhali qrupu hələ də mövcud olmaqda davam edir. Azərbaycanda aztəminatlı əhalinin bir qismi də məhz qaçqınlar və məcburi köçkünlərdirlər. Günümüzdə də aktual bir problem olaraq dövlətimiz bununla mübarizə aparır, müxtəlif növ layihələr yaradılıb-icra edilir, sosial müavinətlər verilir. Hal-hazırda üstündə duracağımız məsələ məhz bu əhali qrupu-

nun köç prosesi ilə bağlıdır. Köç prosesi həyata keçən zaman elə şərait qurulmalıdır ki, xüsusilə həssas qrup plan aztəminatlı əhalinin yaşam şəraitinə uyğunlaşması daha asan olsun.

Aztəminatlı əhaliyə yardım məqsədilə bir sıra layihələr həyata keçirilir. Buna misal olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yaratdığı özünüməşğulluq proqramı bir çox ailələrə kömək olmuş, maddi ehtiyaclarını bu sayədə ödəyə bilmişdirlər. Nazirliyin verdiyi məlumata əsasən son 1 il içində 16.1 min insan üçün sözügedən proqramda kiçik təsərrüfat sahələri yaradılmışdır. Bu proqramdan yararlananların 1200 nəfəri məcburi köçkünlər olmuşdurlar. Proqramda iştirak edən şəxslərə xüsusi təlimlər keçirilmiş, şəxsi biznes planlarına uyğun olan avadanlıqlar verilmiş və kiçik ailə təsərrüfatları yaradılmışdır. Qurulan proqramların, layihələrin icrası dövlətin əhaliyə olan qayğısını, diqqətini  göstərir.

Geri qayıdanların yaşayış məkanları ilə təchiz edilməsi reabilitasiyanın əsas prioritetlərindən biridir. Bu yerlərin sosial-iqtisadi məqsədləri sırasına aid olmaqla bərabər, yaşayış fondunun bərpası həm də onun ən vacib ilk növbəli şərtlərindəndir. Həmçinin bu əhalinin könüllü repatriasiyası üçün mütləq şərtdir. Repatriasiya könüllü olduğu üçün daimi yaşayış məskənlərinə, sözsüz, bu yerlərin əsas o sakinləri geri dönəcəklər ki, hal-hazırdakı yaşadıqları evlər yararsız olsun.

Azad edilmiş ərazilərə köç edəcək əhalinin məşğulluq məsələlərinin təmin edilməsi qarşıda duran əsas məsələlərdən biridir. Nəzərə alınmalıdır ki, əhalinin həmin ərazilərə qayıtmasının proqnozlaşdırması vasitəsilə onların məşğulluğunun təmin edilməsi istiqamətlərini müəyyənləşdirmək mümkündür. Günümüzdə aparılan böyük həcmdə bərpa və yenidənqurma layihələrinə, məhz onların icrasına həmin məcburi köçkün əhalinin içərisindən iş qabiliyyəti olan insanları seçib, o ərazilərdə işlə təmin etmək məqsədəuyğun olardı. Bundan başqa, araşdırmalar nəticəsində müəyyən olunmalıdır ki, həmin məcburi köçkün əhali arasında hansı ixtisas üzrə nə qədər mütəxəssis var. İcra edilən layihələrin hansı tip işçi qüvvəsinə ehtiyacları olduğunu müəyyən etmək, müvafiq proqnoz və uzlaşdırmaların aparılması zərurəti vardır.

**“Ağıllı kənd” layihəsi**

Digər mühüm prioritetlərdən biri isə şəhər və kəndlərin yenidən qurulmasıdır. Hesablamalara görə düşmən işğalı nəticəsində 9 mindən artıq evə ziyan dəymişdir. Bununla bağlı əsas istiqamətlər bu kəndlərin, şəhərlərin bərpası, çoxsaylı və çoxmərtəbəli binaların inşası, kəndlərdə optimal say tərkibinin müəyyənləşdirilməsidir. İşğaldan öncə kəndlərin bəzilərində yaşayan əhalinin sayı 20-40 nəfər arası olmuşdur. Hazırda isə böyük kəndlərin salınması nəzərdə tutulmuşdur. Bu proseslərin həyata keçirilməsi üçün həmin şəhərlərin baş planları hazırlanır və həyata keçirilir. Nəzərdə tutulan və yaradılmaqda olan konsepsiya isə “Ağıllı kənd” konsepsiyasıdır. Bu konsepsiya sayəsində ölkəmizə dünyanın öndə gedən texnoloji şirkətlər cəlb olunur. Bu konsepsiya üzərində kəndlərin qurulması nəticəsində məskunlaşacaq olan əhalinin təhlükəsizliyi təmin olunacaq və onlara əlverişli həyat şəraiti qurulacaqdır. “Ağıllı kənd”  layihəsi beş əsas komponentdən ibarətdir: 200 yaşayış binası, istehsalat, sosial xidmətlər, kommunal xidmətlər eləcə də alternativ enerji. Bütün bunlarla yanaşı, kəndlərdə də müasir tipli məktəblər, poliklinikalar, uşaq bağçaları, elektron hökumət mərkəzləri tikilib, turizm infrastrukturu yaradılıb. Bütün bu kəndlərdə obyektlər alternativ mənbələrdən elektrik enerjisi ilə təmin olunacaq. Bu unikal layihənin həyata keçirilməsində Türkiyə, İtaliya və Çin şirkətləri iştirak edir.

Növbəti “ağıllı kənd” layihəsi Füzuli rayonunun Dövlətkyarlı kəndində həyata keçiriləcək. Bu kəndin təməli 2021-ci il oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Layihəyə

görə "ağıllı kənd", yaşıl və alternativ enerji, eləcə də "ağıllı idarəetmə" sistemi tətbiq olunacaq. İlkin mərhələdə onun tikintisində 450 ədəd üç, dörd və beş otaqlı yaşayış binaları nəzərdə tutulur. Burada tikiləcək məktəb, bağça və market, əkin sahələri bu kəndin ətrafında yerləşəcək. Kənddə biznes layihələri həyata keçiriləcəkdir. Kartofçuluq sahəsində (dəyər zəncirinə müvafiq olaraq), burada 10 daimi və eyni zamanda 300 mövsümi iş yerinin yaradılması nəzərdə tutulur. Kənddə "ağıllı akvakultura sistemləri"nin tətbiqi ilə ixracyönümlü balıqçılıq təsərrüfatının, eləcə də 90-a yaxın iş yerinin olacağı quşçuluq təsərrüfatının yaradılması nəzərdə tutulur. Mövcud turizm həlləri əsasında kənd infrastrukturları formalaşır. Bununa paralel olaraq turizm və otellər şəbəkəsinin qurulması nəzərdə tutulmuşdur.

Prezidentin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı proqramda işğaldan azad edilmiş ərazilərə böyük qayıdış adlı başlıqda qeyd olunan hissənin uğurla həyata keçirilməsi üçün 2 məqsədə nail olunması qeyd olunmuşdur. Bunlardan biri dayanıqlı məskunlaşma, digəri isə iqtisadi fəaliyyətə reinteqrasıyadır. Həmin ərazilərə yenidən qayıdacaq olan əhali işğal dövründə illərdir öz torpaqlarından didərgin düşdüyü üçün geri qayıtdıqda öz doğma ərazilərində əvvəlki dövrdəki kimi rahat yaşamaq istəyəcəkdir. Bunun üçün də bu ərazilərdə elə bir əlverişli şərait qurmaq lazımdır ki, əhali yenidən öz doğma evlərindəki kimi hiss edə bilsinlər. Bu proqramda dayanıqlı məskunlaşmaya dair məskunlaşacaq əhali üçün müasir infrastrukturun qurulması, təhlükəsizliyin təmin edilməsi, rahat həyat tərzinin və müasir xidmətlərin yaradılması nəzərdə tutulmuşdur. Bu yerlərdə əhalinin tarixi vərdişlərindən istifadə edərək ixtisaslaşma aparılmaqla bir sıra sahələr inkişaf etdirilə bilər. Yenidən qurma işləri bitdikdən sonra yüksək keyfiyyətli, rəqabət qabiliyyəti məhsul istehsal edən texnika və texnologiya gücünə modern istehsal və xidmət müəssisələri yaradılmalıdır. Vəsait və maddi baxımdan daxildən və xaricdən investorları ərazilərə cəlb edərək hazır məhsul istehsal edən müştərək emal müəssisələrinin qurulması məqsədəmüvafiq olar.

***Cədvəl 1.* Qarabağ iqtisadi rayonun əhalisinin sayının illər üzrə artımı, min nəfər**

| İllər | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Cəmi | 885.9 | 893.0 | 900.3 | 904.5 | 907.9 |
| Şəhər əhalisi | 295.5 | 297.5 | 299.5 | 300.6 | 301.4 |
| Kənd əhalisi | 590.4 | 595.5 | 600.8 | 603.9 | 606.5 |

***Mənbə:* [11] məlumatları əsasında müəllif tərtib etmişdir**

İqtisadi fəaliyyətə reintiqrasiyaya gəldikdə isə bu regionun tarixi mövqeyinin bərpa edilməsi, regionu ən qabaqcıl regionlardan birinə çevirmək, təbii resurs bolluğu və tarix boyu qazanılan imici sayəsində sərmayələr cəlb etmək əsas məqsədlərdən biridir.

Bildiyimiz kimi "Böyük Qayıdış"-ın ilk pilot layihəsi yekunlaşmış və Zəngilanda 200 evdən ibarət olan "ağıllı kənd" konsepsiyalı kənd salınmışdır. Bu kəndin ilk sakinləri öz doğma yurd-yuvalarına qovuşmuş, onlar üçün hər cürə həyat şəraiti- "ASAN", "DOST", kiçik və orta biznesə dəstək ximətləri, məktəb, ev, bağça tibb məntəqəsi, kommunal xidmətlər yaradılmışdır.

Repatriasiya və sosial təminatın inteqrasiyası

Yenidən köç prosesi olaraq məlum olan repatriasiya prosesi beynəlxalq təcrübədən

də məlum olduğu kimi mərhələli, uzunmüddətli bir prosesdir. Bu proses zamanı repatriantların, yəni köç edəcək əhalinin ümumi sayı, köç prosesi mərhələli olduğu üçün onların mərhələli formada paylanılması bu tədqiqatın mərhələli şəkildə aparılmasını tələb edir. Hazırki şəraitdə müvafiq bölmələr bu prosesin təşkilati, hüquqi əsaslarını gücləndirmək məqsədilə hər rayon daxilində köçkün qrupları və icmaları üzrə mövcud olan demoqrafik göstəricilər, əhalinin peşə hazırlığı və s. məlumatları təhlil edir, qaçqın və köçkünlərin öz doğma yurd-yuvalarına geri dönməsi ilə bağlı kompleks tədbirləri müəyyənləşdirirlər.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi həyatın yenidən qurulması məqsədilə burada məskunlaşacaq kadr potensialının hazırlanılması məsələsi əsas plandadır. 20-ci əsrin sonlarında bu ərazilərdə 40 min nəfərdən çox mütəxəssislər çalışırdı. İdarəetmə sisteminin təkmilləşməsi, İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiqinin ildən-ilə genişlənməsi müxtəlif ixtisaslara olan tələbata müəyyən dərəcədə təsir etsə də, regionun keyfiyyətli və davamlı inkişafı üçün 10 minlərlə mütəxəssislər tələb olunacaqdır. Ona görə də bir milyona yaxın əhalinin yaşayacağı bu məkanda real sektor və xidmət, təhsil, səhiyyə sahələrinin mütəxəssislərlə təminatı işinin keyfiyyətli həlli məqsədilə işğaldan azad edilmiş rayonlarda məskunlaşacaq əhalinin tərkibində mütəxəssislərin, o cümlədən həkim, tibb bacısı müəllimlərin sayının müəyyən edilməsi, həmçinin bu rayonlardan hal-hazırda təhsil alan gənclərin ixtisaslar üzrə sayı barədə məlumatların toplanması və təhlilinin aparılması məqsədəmüvafiqdir.

Məskunlaşmanın vacib cəhətlərindən biri də onun yeni strukturu yalnız birinci reabilitasiya proqramının baş tutduğu dövr üçün yox, daha uzun dövrə uyğun müəyyənləşdirilməlidir. Məskunlaşmaya aid olan vəzifələr çox mürəkkəbdir və bu prosesin reallaşması üçün hazırda xüsusi tədbirlər görülməkdədir.

Qaçqınların və məcburi köçkünlərin azad edilmiş rayonlara qayıtması və məskunlaşdırılması, əlbəttə ki, münaqişədən sonrakı reabilitasiyanın ən mühüm komponentlərindən biridir və hətta onun dayağı da adlandırıla bilər. Axı münaqişədən sonrakı reabilitasiya təkcə bir bölgəni ərazi kimi "səliqəyə salmaq" deyil, o bölgənin yerli əhalisi üçün normal yaşayış şəraiti yaratmaqdır və insanların geri qayıtmaması heç bir əhəmiyyət kəsb etmir. Digər tərəfdən, repatriasiya işğaldan azad edilmiş rayonların sosial-iqtisadi dirçəlişində bir növ istinad nöqtəsidir, çünki rayon əhalisi onun normal həyata qayıtmasında bilavasitə iştirak etmirsə, tammiqyaslı, hərtərəfli və mükəmməl reabilitasiya həyata keçirilir. açıq-aşkar qeyri-mümkündür. Nəhayət, üçüncü tərəfdən, repatriasiyanın nə dərəcədə uğurlu olması həm də insanların münaqişədən sonrakı reabilitasiya işlərinin gedişatına və nəticələrinə verdiyi qiymət kimi qiymətləndirilə bilər və buna görə də bu, əhalinin sosial müdafiəsi üçün həyata keçirilən tədbirlərin səmərəliliyinin göstəricisidir. Repatriasiyanın başlıca xüsusiyyəti, onu həm asanlaşdıran, həm də bəzən çətinləşdirən əsas əlaməti onun könüllülüyü olacaqdır. Bu prosesdə sərt inzibati üsullara əl atmaq nəinki arzuolunmazdır, prinsip etibarilə heç mümkün də deyil. Məlumdur ki, bir çox qaçqın və məcburi köçkün ailələri öz yeni yaşayış yerlərində kifayət qədər rahatdırlar. Onların arasında çoxlu sayda uğurlu iş adamları və dövlət qulluqçuları vardır. Məsələ heç onda da deyil ki, bir çox qaçqın və məcburi köçkün ailələrinin gəliri onların azad edilmiş rayonlarda potensial olaraq qazana biləcəyindən əhəmiyyətli dərəcədə artıqdır. Daha vacibi budur ki, yeni yerlərdə onların həyat tərzi artıq yetərincə oturuşmuşdur, onların normal ev-eşikləri və stabil işləri var, uşaqları səliqə-sahmanlı məktəblərdə oxuyur, ya da normal məktəbəqədər tərbiyə müəssisələrinə gedir. Onlar şəhər həyatına, onun mədəni mühitinə artıq birdəfəlik uyğunlaşmış və alışmışlar. Repatriasiyanın tam könüllü olacağını göz önünə gətirdikdə, bütün bunların əhalinin geri qayıtması prosesini xeyli dərəcədə mürəkkəbləşdirəcəyini

öncədən söyləmək çətin deyil. Bununla bərabər onu da nəzərə almaq lazımdır ki, hətta ən rahat yerləşmiş qaçqın və məcburi köçkünlərin də bir qismi (xüsusilə sahibkarlar və onların müəssisələrində çalışan işçilər) doğma yurd-yuvalarına qayıtmağa üstünlük verəcəkdir. Müxtəlif vaxtlarda qaçqın və məcburi köçkünlər arasında aparılmış sosioloji sorğular və araşdırmalar aydın şəkildə göstərir ki, onların mütləq əksəriyyəti (təqribən 85-90%-i) öz daimi yaşayış yerlərinə qayıtmaq əzmindədir və məhz buna görə də işğal altındakı torpaqların azad ediləcəyi günü səbirsizliklə gözləməkdədir. Deyilənləri əsas götürməklə söyləmək olar ki, potensial repatriantların sayı, böyük bir ehtimalla, 450-520 min nəfər arasında olacaqdır.

Burada repatriasiya üçün dövlət yardımının istehsalı üzrə sxemi əsaslandırmaq üçün prosessual məsrəflər, komponentlərə əlavə olaraq: a) təsərrüfat qurmaq məqsədi ilə birinci tələb olunan məhsulların (təsərrüfat mallarının) alınması üçün müəyyən edilmiş müavinət (əmlak kompensasiyası); b) nəqliyyat; c) təsərrüfat təsərrüfatının idarə edilməsindən müavinət; c) sosial müavinət.

Dövlət Statistika Komitəsindən əldə olunan məlumatlara əsasən Qarabağ iqtisadi rayonunda 2021-ci ildə əhalinin sayı 907,9 min olmuşdur. Məlumdur ki, bu rəqəm gələcək dövrlərdə daha da artacaqdır. Yeni açılmış iş yerlərinə gəldikdə isə 2020-ci ildə bu rəqəm 4536 olduğu halda, 2021-ci ildə 681 olmuşdur. Köç edəcək əhalinin əlverişli şəraitdə yaşaması üçün yeni iş yerlərinin açılması tələb olunur. Bu sahədə də bir çox işlər görülür. Xüsusilə aztəminatlı əhali üçün bu tədbirlərin həyata keçirilməsi vacibdir. Şərqi Zəngəzur iqtisadi rayonuna gəldikdə isə 2021-ci ilin sonuna əhali 345 min nəfər olmuşdur. Yeni açılan iş yerlərinə nəzər saldıqda isə 2020-ci ildə 230, 2021-ci ildə isə 199 olmuşdur. Qarabağ iqtisadi rayonunda olduğu kimi Şərqi Zəngəzur iqtisadi rayonunda da bu rəqəmdə ötən ilə nisbətən azalma müşahidə edilmişdir [6].

Sosial təminat sistemində bir sıra ucqar kənd və qəsəbələrdə əmək haqqına əlavələr, yaxud ünvanlı fəaliyyəti tənzimləmək üçün əlavə əmək haqqı və sosial müavinət sistemi tətbiq olunmalıdır. Dövlət hesabına maliyyələşən bir sıra infrastruktur layihələri normalara uyğun inkişaf etdirilməlidir.

İşğaldan azad olunmuş yerlərdə xüsusi inkişaf agentliklərinin yaradılması, bir sıra rayonlarda əldə edilmiş intensiv bağçılıq təcrübəsinin ərazidə geniş tətbiq edilməsi, aqrar sığortanın tətbiq edilməsi, Xüsusi İnkişaf Fondunun yaradılması (kənd təsərrüfatı sektoru da daxil olmaqla) vacib məsələlərdəndir. Bununla yanaşı, işğaldan azad edilən ərazilərə investisiyanın cəlb edilməsi üçün tədbirlər planın hazırlanması, beynəlxalq donorlar tərəfindən ərazilərdə həyata keçiriləcək layihələrin dövlət strategiyalarına uyğunlaşdırılması, əhalinin həssas qrupları və ailə başçını itirmiş ailələr, şəhid və qazi ailələri üçün inkluziv layihələrin həyata keçirilməsi, iş adamlarının investisiya qoymağa təşviq edilməsi və onlar üçün xüsusi imtiyazların verilməsi, suvarma layihələrinin həyata keçirilməsi, ekoloji təmiz kənd təsərrüfatının dəstəklənməsi kimi fəaliyyətlər də işğaldan azad edilmiş ərazilərimizin bərpası zamanı nəzərə alınmalıdır.

Prezident tərəfindən imza olunan yeni qanunvericilik aktlarına əsasən işğaldan azad olunan torpaqlarımızda çalışan mütəxəssislərə müxtəlif növ güzəştlər tətbiq edilmişdir. Belə ki, bu ərazilərdə işləyəcək olan mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət, aylıq vəzifə maaşına əlavələr, 600 manatlıq birdəfəlik müavinət veriləcəkdir. Eyni zamanda əcnəbi mütəxəssislərə isə 5 il ərzində əmək miqrasiyası kvotası tətbiq edilməyəcəkdir. Həmçinin işəgötürənlərə də bir sıra güzəştlər tətbiq edilmişdir. Bu güzəştlər onu göstərir ki, bu regiona savadlı kadrlar cəlb ediləcək və regionun yüksək inkişafı təmin olunacaqdır.

Nəticə olaraq qeyd edə bilərik ki, həyata keçirilməkdə olan bu layihələrin ölkəmizə bir sıra töhvələri olacaqdır. Açıq-aydın görə bilərik ki, ölkəmiz bu əraziləri ölkənin ən

inkişaf etmiş ərazilərindən birinə çevirməyi qarşısına məqsəd qoymuşdur. Regionda həyata keçirilən nəqliyyat layihələri gələcəkdə ölkənin tranzit ölkəyə çevrilməsinə və qonşu ölkələrlə iqtisadi əlaqələrin möhkəmlənməsinə zəmin yaradacaqdır. Bu infrastrukturun qurulması nəinki ölkəmiz, eyni zamanda qonşu ölkələr üçün də əhəmiyyət kəsb edir. Həmçinin hava limanlarının tikintisi ölkənin turizminin də inkişafına şərait yaradacadır. Bu infrastrukturun qurulması həmçinin ölkənin qeyri-neft sektorunun payının da artırılmasına kömək olacaqdır.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I Dövlət Proqramında Hədəf göstəricilərin sosial inkişafa dair olan hissəsində dayanıqlı inkişafın təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, əhalinin məşğulluğunun artırılması və s. qeyd edilmişdir. Qeyd edilən göstəricilər həmçinin işğaldan azad edilmiş ərazilərimizə də tətbiq ediləcəkdir. Həmçinin bu əhalinin geri dönüşü ilə bağlı müxtəlif növ məlumat bazalarının yaradılması, onların təhlil olunması əsas şərtlərdən biridir. Eyni zamanda köç edəcək əhali arasında müxtəlif növ sorğular keçirilərək müxtəlif məlumatlara yiyələnmək olar. Xüsusilə əhalinin bu ərazilərdə görmək istəyəcəkləri, yaradılmasını zəruri hesab etdikləri müxtəlif növ xidmətlərlə bağlı sorğu keçirilərək onların bu haqda fikirlərini öyrənmək olar. Eyni zamanda dövlətimiz bu əhaliyə xüsusi güzəştlər tətbiq etməyi nəzərdə tutur. Dövlət proqramının maliyyələşmə mənbələrinə Azərbaycan Respublikasının dövlət büdcəsi, Dövlət Neft Fondu, büdcədənkənar fondlar, yerli və xarici investisiyalar və.s mənbələr daxildir. Büdcədənkənar fonda misal olaraq Qarabağ Dirçəliş Fondunu vurğulamaq olar.

Sosial müavinət öz iqtisadi məzmunu etibarilə dövlət yardımının digər formalarından bir qədər fərqlənir. O, köç etmiş hər bir ailəyə, son təyinat məntəqəsinə gəldiyindən sonrakı bir il ərzində nağd pul şəklində aybaay ödəniləcəkdir. Bu müavinə tin məqsədi – repatriantlar hələ stabil işlə təmin olunmadığı və az-çox sabit qazanc əldə etmədiyi dövrdə onların minimal tələbatlarının ödənəcəyinə təminat yaratmaqdır. Müavinətlər o zaman yetərli hesab olunur ki, onların məbləği bu müavinətləri alan insanlara, heç olmasa, yaşayış üçün zəruri olan bütün əmtəə və xidmət növlərini, o cümlədən tibbi xidmətləri əldə etmək və istifadə etmək imkanları yaradaraq onların cəmiyyətdə sosial statuslarının qorunub saxlanılmasını və layiqli həyat səviyyəsini təmin etsin. Beynəlxalq Əmək Təşkilatının sosial təminat məsələləri üzrə 102 saylı Konvensiyasında sosial müavinətlərin yetərlilik səviyyəsini xarakterizə edən normalar kimi, sosial müavinətlərin minimum səviyyəsi, onların müəyyən edilməsi şərtləri və dövrləri əsas götürülür. Bu baxımdan müavinətlərin məbləği, ən azı, yoxsulluq həddindən və ya gəlirlərin minimum səviyyəsindən aşağı olmamalı və onları alan şəxslərin yaşayışı üçün zəruri olan əmtəə və xidmətlərə əlçatanlıq imkanlarını təmin etməli, onların rifahının, həyat səviyyəsinin pisləşməsinin qarşısını almaq, çətin maddi vəziyyətdən çıxa bilmələri üçün şərait yaratmalıdır [8]. Bu baxımdan sosial müavinətlər təyin edilərkən onların məbləği ölkənin sosialiqtisadi inkişaf səviyyəsi və potensialından asılı olaraq yaşayış minimumu, yoxsulluq həddi, minimum əməkhaqqı, ölkə üzrə orta aylıq əməkhaqqı, minimum pensiya səviyyəsi göstəricilərindən hər hansı birinə uyğun nisbətdə nəzərə alınmalıdır. Ümumiyyətlə, cəmiyyətdə gedən transformasiya proseslərinin onun həyatına mənfi təsirlərinin aradan qaldırılmasında ehtiyacı olan əhali təbəqələrinə müxtəlif formada pul yardımlarının göstərilməsi müstəsna rol oynayır. Burada sosial təminat sisteminin vacib elementlərindən biri olan sosial müavinət və yardım sisteminin təsir imkanları genişdir. Son illər respublikamızda sosial müavinət və yardım sisteminin formalaşdırılması və inkişafı, onun fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi istiqamətində xeyli işlər görülmüşdür. Bəzi müavinətlərin məbləğinin daha da artırılmasına və respublikamızın müavinət sisteminin təqaüd təminatı sistemi

ilə əlaqəli şəkildə daha da təkmilləşdirilməsinə ehtiyac vardır.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı onun hər bir vətəndaşının həyatında özünü göstərməkdə, insanların maddi-rifah halının günü-gündən yaxşılaşmasına təkan verməkdədir. Əhalinin pul gəlirlərinin çoxalması, əməkhaqqı və pensiyaların, büdcədən verilən müavinətlərin həcmində olan artımlar və bu qəbildən olan digər amillər ölkədə sosial sferada vəziyyətin daim yaxşılaşmasını xarakterizə edən mühüm parametrlərdəndir. Əldə edilən bu uğurlar Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti üzündən öz doğma yurd-yuvalarını tərk edərək qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların yaşayış durumuna və sosial vəziyyətinə də təsirsiz ötüşməyib. MDB, eləcə də Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə ilk yerlərdə duran dövlətlərdən biri olmasına baxmayaraq, Azərbaycan bu kateqoriyadan sayılan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkələrdəndir.

Hər bir Azərbaycan vətəndaşının işğaldan azad edilmiş torpaqlara qayıtmaq kimi böyük prosesə öz töhfəsini vermək imkanı var. Bu istiqamətdə sosial xidmət və sosial iş sahəsində çalışan işçilərlə yanaşı, sosial iş və xidmət sahəsində təhsil alan tələbələr də könüllü kimi fəaliyyət göstərmək üçün böyük potensiala malikdirlər. İlk növbədə onların potensialından vətənə qayıdacaq əhali arasında ictimai işlərin aparılması istiqamətində istifadə etmək məqsədəuyğun olardı. Sosial sahə mütəxəssisləri məskunlaşma ilə bağlı sosial təşəbbüslərlə çıxış etməli, müvafiq sosial layihələr təqdim etməlidirlər. Repatriasiya edilmiş əhali və icmalarla sosial işlərin aparılması, layiqli məskunlaşma üçün sosial layihələrin təklif edilməsi, inklüziv tələblərə cavab verən ağıllı şəhər, ağıllı kənd layihəsi üçün modellərin təklif edilməsi, işğaldan azad regionların əhalisi arasında dinc yanaşı yaşamaq üçün sosial dialoq potensialının səfərbər edilməsi, sosial xidmət sektoru üçün təqdim olunacaq layihələrlə ortaya çıxan məşğulluq potensialı Azərbaycanın sosial işçilərinin qarşısında duran mühüm və şərəfli vəzifələrdən biridir.

**Nəticə**

Bütün bu icra edilən və icra edilməsi planlaşdırılan sosial islahatlar mexanizmlərini ümumiləşdirsək əminliklə deyə bilərik ki, bu cür tədbirlər rəqabətqabiliyyətli və qloballaşan müasir cəmiyyətdə Qarabağ əhalisi üçün yaradılan sosial-iqtisadi imkanlar digər regionlardan heç də geri qalmayacaq. Vətən müharibəsi və pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, şəhid ailələrinin sosial təminatı xüsusi olaraq diqqətdə saxlanılır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Bu kateqoriyadan olan insanları işlə təmin etmək üçün dövlət başçısı tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə verilən təlimatın icrası olaraq qənaətbəxş. Bu tədbirlərin davamı kimi isə aztəminatlı əhali öz dədə baba yurduna qayıtdıqdan sonra kompleks layihələrin həyata keçiriləcəkdir. Bu, bir daha Azərbaycan dövlətinin sosial sahəyə nə qədər böyük önəm verdiyindən xəbər verir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Orxan Bağırov. “Azərbaycan azad edilmiş əraziləri yüksək texnoloji əraziyə çevirməyi hədəfləyir”
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 6 səh.
3. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu / [Elektron resurs].
4. https://science.gov.az/az/news/open/18036
5. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2022 (iyul-avqust) Region və sahə iqtisadiyyatı

10.61764/lasr.1.2023.198-207

.Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsi problemlərinə nəzəri-metodoloji yanaşmalar
6. Тарбиз Алиев. Восстановление Экономики Карабаха И Восточного Зангезура Баку-2022
7. Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin 2021-ci il üzrə məruzəsi
8. https://dma.gov.az/layiheler/sosial-layiheler/qafqazda-azteminatli-mecburi-kockunlerin-ve-yerli-ehalinin-sosial-ve-iqtisadi-inkisafi-epic-layihesi
9. https://www.sosial.gov.az/Son-bir-ilde-16.1-min-shexs-ucun-ozunumeshgulluq-proqrami-uzre-kicik-teserrufatlar-yaradilib_649246
10. https://president.az/az/articles/view/54468
11. https://www.stat.gov.az/source/demoqraphy/

**Айсун Бунятова**
*Научный руководитель:* **Тарана Алиева, доц.**

## СТРАТЕГИЧЕСКИЙ ПОДХОД К ПРОЕКТУ РАССЕЛЕНИЯ НАСЕЛЕНИЯ И СОЦИАЛЬНОГО РАЗВИТИЯ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

### *РЕЗЮМЕ*

В результате целенаправленной политической и экономической деятельности, проводимой в направлении развития Азербайджана, а также строительства армии, наши территории, оккупированные Арменией, почти на 30 лет были освобождены от оккупации. Наша славная армия восстановила территориальную целостность Азербайджана в ходе 44-дневной Отечественной войны. Успешные социально-экономические и политические достижения, национальные и поликультурные ценности создают уверенность в том, что мощь Азербайджана, являющегося стыком Востока и Запада, в ближайшие годы еще больше возрастет. Эти возможности гарантируют укрепление экономического суверенитета Азербайджана и его превращение в мощное государство с высоким социальным благосостоянием общества на основе современного уровня жизни в период до 2030 года. Азербайджанское государство выбрало путь развития социально ориентированной рыночной экономики с целью дальнейшего повышения благосостояния населения страны. На фоне этих экономических событий правительство Азербайджана очень болезненно относится к вопросу расселения населения на территориях, освобожденных от оккупации.

***Цель*** – это изучение теоретико-методологических основ расселения населения на освобожденных от оккупации территориях и изучение стратегического подхода в этом направлении.

***Методология*** – в статье использованы методы экономического анализа, анализа, синтеза, экономико-статистического, социологического и сравнительного анализа.

***Результаты исследования*** – в результате экономического анализа возвращения населения в Карабахскую зону можно отметить, что, несмотря на то, что этот процесс начался чуть более чем за 2 года, была проделана достаточно большая работа. В целях социального развития региона целесообразна более широкая диверсификация самозанятости.

***Ключевые слова:*** *отечественная война; социально ориентированная рыночная экономика; мультикультурный; «Умная деревня»; репатриация*

10.61764/lasr.1.2023.198-207

**Aysun Bunyatova**
*Scientific supervisor:* **Tarana Aliyeva, Associate Professor**

# A STRATEGIC APPROACH TOWARDS THE PROJECT OF POPULATION SETTLEMENT AND SOCIAL DEVELOPMENT IN THE LIBERATED TERRITORIES


## *ABSTRACT*

As a result of purposeful political and economic activities conducted in the direction of the development of Azerbaijan, as well as the building of the army, our territories occupied by Armenia were liberated from occupation for nearly 30 years. Our glorious army restored the territorial integrity of Azerbaijan in the 44-days' Patriotic War. Successful socio-economic and political achievements, national and multicultural values create confidence that the power of Azerbaijan, which is the junction of East and West, will increase even more in the coming years. These opportunities guarantee the strengthening of Azerbaijan's economic sovereignty and its transformation into a powerful state with a high social welfare society based on modern living standards in the period up to 2030. The state of Azerbaijan has chosen the path of developing a socially oriented market economy in order to further increase the welfare of the population in the country. Against the background of these economic events, the government of Azerbaijan is highly sensitive to the issue of population settlement in the territories that liberated from occupation.

***Purpose*** – It is the study of the theoretical and methodological bases of the settlement of the population in the territories freed from occupation and the study of the strategic approach in this direction.

***Methodology*** – in the article economic analysis methods, analysis, synthesis, economic-statistical, sociological and comparative analysis were used.

***Findings*** – As a result of the economic analysis of the return of the population to the Karabakh zone, it can be noted that despite the fact that this process started nearly 2 years ago, quite a lot of work has been done. For the purposes of social development in the region, a wider diversification of self-employment is appropriate.


***Keywords:*** *patriotic war, social oriented market economy, multicultural, "Smart village", repatriation*